**Məqsəd nağdsız ödənişlər dövriyyəsini inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır**

*Azərbaycan Respublikasının Mərkəzi Bankının sədrinin birinci müavini, Milli Ödəniş Şurasının (MÖŞ) sədri Alim Quliyevin «Vergilər» qəzetinə müsahibəsi*

***- Alim müəllim, ölkənin ödəniş sistemlərinin təkmilləşdirilməsində hansı hadisələri qeyd etmək olar?***

- Son 10 il ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən elektron ödəniş sistemlərinin yaradılması istiqamətində aparılan islahatlar nəticəsində beynəlxalq standartlara cavab verən Milli Ödəniş Sistemi infrastrukturu yaradılmışdır. Bu sistemin əsas komponentlərindən hesab olunan iri və təcili ödənişlər üzrə Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZİPS) 2001-ci ildən, xırda və daim təkrarlanan ödənişlərin elektron daşıyıcılarla həyata keçirilməsinə imkan verən Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) isə 2002-ci ildən müvəffəqiyyətlə istifadə olunur. Bu sistemlərin istifadəyə verilməsi ilə banklararası hesablaşmaların tam elektronlaşdırılmasına nail olunmuş, hesablaşmaların səmərəliliyi dəfələrlə yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin İnkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı», habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış «Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» Sərəncam son illər ərzində Milli Ödəniş Sistemi infrastrukturunun inkişaf etdirilməsi istiqamətində daha geniş islahatların həyata keçirilməsinə güclü təkan vermişdir. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində Milli Ödəniş Sistemi infrastrukturunun genişləndirilməsi və ödəniş kartları bazarının daha da inkişaf etdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən «MilliKart» kart prosessinq mərkəzi yaradılmış və 2006-cı ildə respublikada fəaliyyət göstərən 18 kommersiya bankının idarəçiliyinə və istifadəsinə verilmişdir.

Milli Ödəniş Sistemi infrastrukturunun daha da genişləndirilməsi, regionlarda əhali və təsərrüfat subyektlərinin maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması məqsədi ilə aparılmış islahatlar çərçivəsində Mərkəzi Bank tərəfindən «Azərpoçt» MMC-yə maliyyə xidmətlərinin göstərilməsi üçün müvafiq lisenziya verilmişdir. Qanunvericilik əsaslarının yaradılması və mühüm institusional tədbirlər nəticəsində 1500-dən çox filial və şöbəyə malik «Azərpoçt» MMC ənənəvi poçt xidmətləri ilə yanaşı, maliyyə xidmətləri də göstərməyə başlamışdır ki, bununla da regionlarda, habelə ucqar kənd yerlərində əhalinin, təsərrüfat subyektlərinin elektron ödəniş xidmətlərindən istifadə etməsinə imkanlar yaradılmışdır.

Milli Ödəniş Sisteminin digər mühüm bir komponenti olan Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS) 2008-ci ildə kommunal xidmətlər üzrə ödənişlərin yığım səviyyəsinin və şəffaflığın daha da artırılması, bu sahədə maliyyə dövriyyəsinin bank sisteminə cəlb edilməsi məqsədilə yaradılaraq istismara verilmişdir. E-hökumət layihəsi çərçivəsində dövlət büdcəsinə ödəniləcək vergi, rüsum, icarə haqqı və digər ödənişlərin müasir ödəniş alətləri ilə istənilən bank və poçt şəbəkəsində və internet resurslarından istifadə etməklə vahid platforma üzərindən qəbulu üçün KÖMİS-in bazasında «Hökumət Ödəniş Portalı» yaradılmışdır.

Keçən il banklararası elektron ödəniş sistemləri vasitəsilə ümumilikdə emal olunan ödənişlərin həcmi 107,8 mlrd. manat təşkil etmişdir ki, bu da son 5 ildə 4,3 dəfə artım deməkdir. Milli Ödəniş Sisteminin yaradılması və inkişafı istiqamətində əldə edilən nailiyyətlərə baxmayaraq, yaradılmış potensialdan istifadə göstəriciləri, nağdsız ödəniş indikatorları inkişaf etmiş ölkələrlə müqayisədə hələ ki aşağı səviyyədədir.

***- Hazırda ödəniş kartları vasitəsilə həyata keçirilən əməliyyatların dövriyyəsini və bazarın artım dinamikasını necə qiymətləndirmək olar?***

- 2012-ci ilin 1 iyun tarixinə emissiya edilmiş ödəniş kartlarının ümumi sayı 4,8 mln. ədəd təşkil etmişdir ki, bu da keçən ilin müvafiq göstəricisi ilə müqayisədə 9,1% (400 min ədəd) artım deməkdir.

2012-ci ilin ilk beş ayı ərzində ödəniş kartları vasitəsilə həyata keçirilən tranzaksiyaların ümumi həcmi isə 3 mlrd. 392 mln. manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə tranzaksiyaların ümumi həcmi 23,4% artmışdır.

2012-ci ilin 1 iyun tarixinə ölkə üzrə quraşdırılmış bankomatların sayı 2216 ədəd, POS-terminalların sayı 37194 ədəd olmuşdur. 2011-ci lin müvafiq dövrü ilə müqayisədə quraşdırılmış bankomatların sayı 13,1% (256 ədəd), POS-terminalların sayı isə 3,7 dəfə (27099 ədəd) artmışdır.

***- Milli Ödəniş Şurası ölkədə elektron ödəniş sistemlərinin yaradılması, nağdsız hesablaşmaların dövriyyəsinin artırılması sahəsində hansı tədbirləri həyata keçirməyi planlaşdırır?***

- Ölkədə nağdsız ödənişlərin həcminin artırılması, ödəniş sistemləri sahəsində həyata keçirilən islahatların əlaqələndirilməsi və konseptual qərarların qəbul olunması məqsədilə yaradılmış Milli Ödəniş Şurası bu ildən fəaliyyətə başlamışdır. Milli Ödəniş Şurasının ilk iclasında Milli Ödəniş Sistemi üzrə mövcud vəziyyətlə tanışlıq və onun inkişaf perspektivləri müzakirə edilmişdir. Milli Ödəniş Şurası beynəlxalq təcrübədən istifadə etməklə ölkədə elektron ödəniş xidmətlərinin genişləndirilməsi, əhali və iqtisadi subyektlər tərəfindən bu xidmətlərdən istifadənin artırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini planlaşdırır.

***- Dövlət rəhbərliyi tərəfindən ölkədə nağdsız ödənişlər üzrə dövriyyənin ən qısa vaxtda inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub. Elektron ödəniş xidmətlərinin inkişaf istiqamətləri və qarşıdakı beş il üçün strateji hədəflər nədən ibarətdir?***

- Növbəti beş il üçün Mərkəzi Bank tərəfindən ərazi mənsubiyyətindən asılı olmayaraq bütün hüquqi və fiziki şəxslərin maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması, nağdsız ödəniş alətlərindən istifadənin cəmiyyətdə bir normaya çevrilməsi, iqtisadi dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyəyə cəlb edilməsi, habelə hökumət və digər qurumlarının korporativ informasiya sistemlərinin elektron ödəniş sistemlərinə texnoloji inteqrasiyasının tamamlanması istiqamətində həyata keçiriləcək kompleks tədbirləri özündə əks etdirən «Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərinin təkmilləşdirilməsi və inkişafı üzrə 2012-2016-ci illər üçün Dövlət Proqramı»nın layihəsi təsdiq edilmək üçün hökumətə təqdim edilmişdir. Dövlət Proqramının icrası çərçivəsində elektron ödəniş xidmətlərinin infrastruktur imkanlarının artırılması, hüquqi və institusional bazasının gücləndirilməsi, istifadə effektivliyinin yüksəldilməsi, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb edilməsi prioritet istiqamətlər kimi qəbul edilmişdir.

Elbrus CƏFƏRLİ